**Bəradər Səməndərli**

**Aygün Hüseynova** “Ömür salnamələri” kitabından (2016)

## Mirələmovun “Qırxıncı otağı”

Bir vaxtlar Hüseynbala Mirələmovu ədəbi ictimaiyyət o qədər də yaxşı tanımırdı. Yaxşı deyiblər ki, ən yaxşı qiyməti zaman özü verir. Çox keçmədi ki, Mirələmov onlarla roman, povest, dram və publisistik əsərlər ortaya qoydu. Üstəlik, Azərbaycanın ictimai-siyasi həyatında da öz aktiv fəaliyyətini davam etdirdi. 2015-ci ildə Milli Məclisə seçkilərdə üçüncü dəfə deputat mandatı qazandı. Bundan əlavə 2008-ci ildən Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədridir.

Oxucuların, ola bilər ki, heç də hamısı hələ də Hüseynbala Mirələmovu yaxından tanımır. Ona görə biz “Qırxıncı otaq” romanının girişində barəsində yazılan bir parçanı sizlərə təqdim etmək istərdik: “Hələ uşaqlıq illərindən ağlına, istedadına, elmə və ədəbiyyata hədsiz marağına görə yaşıdlarından seçilən Hüseynbala Mirələmov həyatın zəhmət və sınaq dolu yollarından keçib görkəmli yazıçı-dramaturq, ictimai-siyasi xadim, alim, publisist və istehsalat komandiri kimi tək Azərbaycanda deyil, bir çox dost və qardaş ölkələrdə böyük nüfuz qazanmışdır.

Ənənəsi 1890-cı ildə qoyulan “Görkəmli adamların həyatı” seriyası ilə Moskvanın dünya şöhrətli “Molodaya qvardiya” nəşriyyatı Hüseynbala Mirələmovun ərsəyə gətirdiyi Heydər Əliyev, İlham Əliyev (bunlar digər müəllif Viktor Andriyanovun iştirakı ilə) və Zərifə Əliyeva haqqında kitablarını nəşr etdirmiş, hər üç kitab müxtəlif ölkələrin məşhur kitabxanaları, muzeyləri, arxivləri, elm, tədrisocaqları, ziyalıların şəxsi kitab fondununqiymətli mədəni sərvətinə çevrilmişdir.

Yazıçının çoxsaylı əsərləri Azərbaycanın müxtəlif teatrlarında müvəffəqiyyətlə səhnəyə qoyulmuş, televiziya tamaşalarında uğurla əksini tapmış, roman, povest, tarixi-ədəbi əsərləri, publisistik yazılar və hekayələri türk, rus, ingilis, alman, fransız, gürcü,  ərəb və fars dillərinə tərcümə olunmuşdur”

Bəli, bu gün çoxları bilmir ki, Azərbaycan, Asiya və Afrika ölkələru Yazıçılar Birliyinin üzvü olan H. Mİrələmov Böyük Knyaz Yuri Dolqorukiy adına Beynəlxalq mükafata, Fransanın Napoleon, Ukraynanın “Zolotaya formula” qızıl medallarına, Rusiyanın N.A.Kosıgin adına, Azərbaycanın Yusif Məmmədəliyev, akademik Həsən

Əliyev, Rəsul Rza adına mükafatlarına, “qızıl qələm”, “Qızıl dərviş”, “Qızıl kəlmə” ədəbi təltiflərinə layiq görülmüşdür.

Bəli, bu gün çoxları onu da bilmir ki, Hüseynbala Mirələmov texnika elmləri doktoru, professor, Azərbaycan və Beynəlxalq Mühəndislik Akademiyalarının müxbir üzvü olmaqla bərabər, bu sahədə çoxsaylı dərsliklərin müəllifidir. Alim həm də “Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri” beynəlxalq elmi-texniki jurnalının məsul redaktorudur.

Yenə “Qırxıncı otaq” romanının girişində oxuyuruq: “Azərbaycan Parlamentinin deputatı kimi, qanunların, insan hüquqularının keşiyində vicdanla xidmət göstərən ədalətli hüquqşünas obrazı H. Mirələmovu daim düşündürmüş və o, demokratik, hüquqi dövlət quruculuğunda müstəqil rol oynayan, xalqı qarşısında sədaqət meydanına çevrilən, saxtakarlıq, böhtan və hiylə qarşısında əyilmədən, mərdliklə mübarizə aparıb, bu çətin yolda zirvələrə ucalan hakim obrazını “Qırxıncı otaq” romanında Adil Hüseynlinin simasında böyük sənətkarlıqla canlandıra bilmişdir”.

Elə buradaca qeyd edək ki, görkəmli və unudulmaz Azərbaycan yazıçısı Süleyman Rəhimov bir vaxtlar, yəni köhnə sovet dönəmində ötən əsrin otuzuncu illərinin prokuror obrazını –Mehmanı yaratmışdı. “Mehman” sovetin dövründə çox layiqli və qiymətli əsərlərdən biri idi. Bu povest, məlum olduğu kimi, sonralar həm də filmləşdirildi.

Bəlkə də “Mehman”dan sonra hüquqi mövzuda onlarla roman, povest yazılıb. Həqiqət isə budur ki, onlardan heç biri həmin povest qədər şöhrət tapmayıb. Demək istəyirik ki, Hüseynbala Mirələmovun qələmə aldığı “Qırxıncı otaq” romanı “Mehman”dan sonra ədəbiyyatımızda bitkin hüquqşünas obrazı olan ikinci əsərdir. Əgər “Mehman”da biz prokuror obrazını seviriksə, “Qırxıncı otağ”ı açanda hakim Adil Hüseynli bizi qarşılayır.Hüseynbala Mirələmovun bu romanı həm də çağdaş dünyamızdan bəhs edir. Odur ki, istər –istəməz maraqla oxunur. Yeri gəlmişkən, bir faktı da qeyd edək ki, bu gün cəmiyyətdə hakimlərə münasibət birmənalı deyil. Və onların arasında da öz vəzifəsinə vicdanla yanaşmayanlar da ara-sıra tapılır. Nə yaxşı ki, beləlləri cəzalandırılır və hakim postundan uzaqlaşdırılır. Amma gəlin, etiraf edək ki, son illər Azərbaycan məhkəməsinin işində şəffaflıq xeyli artıb və bu gün inamla demək olar ki, hakim adını uca tutanlar heç də az deyil .

Hüseynbala Mirələmovun “Qırxıncı otaq” romanı bu mənada ədəbiyyatımızda vicdanlı hakim obrazı boşluğunu doldurmaqla yanaşı , təbii ki, cəmiyyətdə də hakimlərə olan münasibətin müsbət dəyişməsində öz rolunu oynayacaqdır.